

Türk Müziği, Haziran 2023
3(2), 279-290, e-ISSN: 2822-3195
turkmuzigidergisi.com

gencbilgeyayincilik.com
© 2023

**Araştırma Makalesi**

# Azerbaycan aşık sanatında Gencebasar bölgesinin icra geleneklerinin incelenmesi

Feride Kerimova[1]

Bakü Koreografi Akademisi, Bakü, Azerbaycan

**Makale Bilgisi**

**Geliş:** 22 Mayıs 2023
**Kabul:** 28 Haziran 2023
**Online Yayın:** 30 Haziran 2023

**Anahtar Kelimeler**
Aşıklık
Destan
Gelenek
Gencebasar
Hava
Repertuar

2822-3195 / © 2023 TM
Genç Bilge Yayıncılık tarafından yayınlanmakta olup, açık erişim, CC BY-NC-ND lisansına sahiptir.

**Öz**

20. yüzyılın ortalarından başlayaraq aşık sanatında bölge geleneklerinin araştırılması ön plana çıxmışdır. Bu sahede bir sıra elmi eserler yazılmış, Tovuz, Gedebey, Şirvan, Borçalı, Qazax, Qarabağ bölgelerinin aşık musiqisi ve icra geleneklerine hesr olunmuş kitablar erseye gelmişdir. Gencebasar mühiti diger bölgelere nisbeten en geniş coğrafi erazini ehate edir ve özünde bir sıra kiçik aşık mekteblerini birleşdirir. Burada Gence, Tovuz, Qazax, Gedebey, Şemkir, Daşkesen aşıqlarının ifaçılıq enenelerini özünde ehtiva eden mektebler cemlenmişdir. Azerbaycan aşık sanatına böyük töhfeler vermiş Gencebasar mühitinde bu senetin görkemli ustadları yaşayıb yaratmış ve öz istedadlı ifaları ile seçilmişler. O cümleden, besteçilik qabiliyyeti ile repertuarı yeni havalarla zenginleşdirmiş, dastançılık enenelerini inkişaf etdirmişler. Gencebasar aşıkları ifa etdiyi havalari saz ve balaban müşayietinde icra edirler. Duetler ve daha çox ansambl terkibi ile ifa edirler. Burada ilk defe aşıqlar ansamblı teşkil edilmişdir. Gencebasar aşıklarının yaradıcılığında bölgeye mahsus havalar vardır. Bunlardan “Baş Sarıtel”, “Orta Sarıtel”, “İncegülü”, “Qazax sebzesi”, “Zülfüqar Dübeyti”, “Azaflı Dübeyti”, “Celal gülü”, “Gence gözellemesi” ve digerlerinin adını çekmek olar. Gencebasar aşık mühiti hem de destançılık eneneleri ile meşhurdur. Burada Azerbaycan aşık destanlarının esas kısmı toplanmışdır ve yaxud onların variantları mevcuttur. Gencebasar bölgesinde yaptığımız saha araştırmaları zamanı bele destanlardan biri olan “Melikmemmed ve Gülendam” destanıdır. Bundan başka Gencebasar aşıklarının repertuarında “Qurbani”, “Aşıq Aleskerin Gence seferi”, “Can bağça”, “Şah İsmayıl”, “Novruz ve Qandab”, “Koroğlu” ve diger destanlar da yer alır. Gencebasar aşıklarının vokal ses imkanları geniştir ve burada zil diapazon seciyyevdir. “Yanıq Keremi”, “Kerem gözellemesi”, “Ruhani”, “Baş Sarıtel” ve d. havalar bu gün genellikle enstrumental şekilde icra edilir. Gencebasar aşık mühitinin icra gelenekleri, hava ve destan repertuarı Göyçe ve Borçalı aşık mühitleri ile karşılıklı şekilde formalaşıb inkişaf etmişdir. Gencebasar aşıklarının bir çoxu Borçalı ustadlarında ders almış ve ya aksine buradakı aşıklar Tovuz, Qazax, Gedebey, Şemkir aşıklarının yanında şagirdlik etmişler. Neticede yaratıcılık geleneklerinin karşılıklı paylaşılması ve tesiri baş vermiştir.

**Makaleye atıf için**

Kerimova, F. (2023). Azerbaycan aşık sanatında Gencebasar bölgesinin icra geleneklerinin incelenmesi. *Türk Müziği, 3*(2), 279-290.

## Giriş

Çoxasrlık bir tarihe malik olan ozan-aşık sanatı Azerbaycan halkının en qedim musiqili-edebi poetik mirasıdır. 20.yüzyılın II yarısından etibaren aşıqşünaslıqda baş veren esas yeniliklerden biri kimi sanatın musiqili-poetik rakursdan öyrenilmesi, elece de aşık sanatının regional aspektden araşdırılması böyük dönüş yaratmışdır. “Azerbaycan aşık sanatı” monoqrafiyasında E.Eldarova ilk defa olarak (musiqişünaslıq elminde) aşık sanatının musiqili poetik irsine geniş nezer salmış, aşık yaradıcılığının peşekar meyarlarını qruplaşdırmış, janr klassifikasiyası aparmış ve en esası ise Azerbaycan hüdudlarında mövcud olan aşıq mühitleri haqqında malumat vermişdir. Monoqrafiyada üç esas aşık mühiti: Göyçe zonası – Kelbecer, Nahçıvan, Borçalı; Gencebasar zonası – Gence, Şemkir, Tovuz, Qazax; Şirvan zonası – Şamaxı, Kürdemir, Salyan gösterilmişdir (Eldarova, 1996:14). Bu gelenek daha sonra aşık sanatının öyrenilmesinde yeni merheleni teşkil eden musiqişünas alim Tariyel Memmedovun yaradıcılığında davam etdirilmişdir. Lakin E.Eldarovadan farklı olaraq T.Memmedov bu meseleye daha geniş rakursdan yanaşmışdır: “Enenevi aşık mektebleri bir neçe baxımdan,

1 Doktora öğrencisi, Bakü Koreografi Akademisi, Bakü, Azerbaycan. E-mail: farida.agazade@gmail.com ORCID: 0009-0005-9145-7392

o cümleden etnoqrafik (diyarşünaslıq) ve yerli enene ve xüsusiyyetler baxımlarından öyrenilmelidir. Bir sıra tanınmış aşıq mektebleri, - Göyçe, Tovuz, Borçalı, Gence-Şemkir, Qarabağ, Qaradağ, Tebriz, Urmiya, Çıldır ve Derbend saz-söz ustaları arasında ister işledilen havacat ve onun ifa üslubunda, ister yerli danışıq ve söz-dastan söylemelerinde, isterse de saz çalğısı, oxuma texnikası, ses yüksekliyi ve seslenme xüsusiyyetlerinde, tek ve ansambl (birge) heyetde çıxışlarına göre bir-birinden ferqlenir" (Memmedov, 2011:23).






**Fotoğraf 1.** Gence muhitinin Google Map'te görnümü ve bir görünüm (Web 1)

Göründüyü kimi alim aşıq mühitlerini sadalayarken Güney Azerbaycan arazisini de nezere alır. Bu tesadüfi deyildir. 20. yüzyılın II yarısından başlayaraq ve xüsusile 1990-cı illerden sonra Azerbaycan medeniyyetinin tedqiqinde Güney Azerbaycan faktoru mühüm rol oynamışdır. Bele ki, 1991-ci ilde Azerbaycan Respublikası müsteqillik elde etdikden sonra onun tarihine münasibet deyişmiş ve o yeni merheleye qedem qoymuşdur. Keçmiş Sovet ideologiyasının tesirinden azad olan düşünce tarzı tarihi torpaqlarımızın vahid kontekstde qebul edilmesi ile neticelenerek elmi tedqiqat prosesine de öz tesirini göstermeye bilmezdi. Bu mesele ise medeniyyet sahesinde xüsusi hassaslık ifade edirdi. Çünki Azerbaycan aşık sanatı dedikde sadece şimaldakı erazinin nezerde tutulması ve öyrenilmesi dolğun neticelerin alınması üçün yeterli ola bilmez. Bu tendensiya ilk evvel öz tezahürünü folklorşünas alimlerin yaradıcılığında göstermeye başlamış, daha sonra musiqişünaslıq elminde de davam etdirilmişdir. Ümumiyyetle, qeyd etmek lazımdır ki, aşıq sanatı ile bağlı mekteb, mühit meseleleri folklorşünaslıq elminde daha geniş tedqiq edilmişdir. Bu mövzuda folklorşünas alimler M.Qasımlının, Azad Nebiyevin, S.Qaniyevin ve digerlerinin elmi tedqiqatlarında deyerli araşdırmalar yer almışdır. İlk növbede qeyd edek ki, edebi folklorşünaslıq araşdırmalarında aşıq mühiti ve aşıq mektebi ayrıca manalar ehtiva edir ve alimler aşıq mühitine daha geniş manada yanaşma nümayiş etdirirler. Aşıq mektebi ise daha dar çerçivede teşekkül tapmış, bazen ise bir ustad sanatkarın bele timsalında cemlenen yaradıcılıq eneneleri kimi qebul edilmişdir. "Aşıq mühiti geniş ve mürekkeb bir kompleksdir. Buraya müeyyen tarixi-coğrafi hüdudların çevrelediyi (mesela, Tabriz-Qaradağ, Urmiya, Şirvan, Gencebasar, Borçalı, Göyçe, Qarabağ, Naxçıvan ve d.) aşıq ifaçılıq eneneleri ile yanaşı, hemin regionun medeni-tarihi mövqeyi, coğrafi şeraiti, iqlimi, yerli camaatın adet-enenesi etnoqrafik yaşam tarzı, dini-mezhebi görüşleri, saza-söze hassaslıq derecesi ve s. kimi çoxsaylı ve çoxyönlü amiller daxildir" (Qasımlı, 2011:170).

**Araştırmanın Amacı**

Araştırmamızın temel amacı Azerbaycan aşık sanatında Gencebasar mühitinin yerini ve rolunu müeyyen etmek, burada mevcut olan ifaçılıq enenelerine, aşıq havaları ve destan repertuarına nezer salmaq, tesnifatlar aparmaq ve diger mühitlerle müqayiseli tehliller aparmaqdan ibaretdir. Bu amacla Gencebasar mühiti ile bağlı mevcut elmi tedqiqatlarda verilen melumatlar ve bölgeye teşkil etdiyimiz ekspedisiya seferleri zamanı aşıqlardan aldığımız informasiyaları inceleyerek hava repertuarının tesnifatı aparılmış, destançılıq eneneleri öyrenilmişdir.

Araştırmanın temel amacı;

- Gencebasar aşıklarının icra etdikleri havalar, ifaçılıq eneneleri, instrumental müşayiet terkibi, destan yaratıcılığı üzerine tahliller yapmaktan ibaretdir.

Araştırmanın alt amaçları;

- Gencebasar mühitinin Azerbaycan aşıq sanatında tarihi, coğrafi ve medeni yerini mueyyen etmek,
- Gencebasar mühitinde ifa edilen ve bilavasite burada yaranan havaları tehlil ve tesnif etmek,

- Gencebasar aşıklarının ifaçılıq geleneklerini üze çıxarmaq ve diger mühitlerle mükayise etmektir.

## Yöntem

Sunulan araştırmada tarihsel, teorik ve karşılaştırmalı analiz yöntemleri istifade olunmuştur. Tarihsel yöntem genellikle Gencebasar mühitinin tarixi gelişme merhelelerini deyerlendirmek meksedi ile tatbik edilmişdir. Teorik yöntem bu mühite has olan havaların musiqi dilinin analizi zamanı istifade edilmiş, karşılaştırılmalı yöntem ise Gencebasar mühitinin vokal ve enstrumental icra geleneklerinin diger mühitlerle mukayisesi açısından kullanılmıştır. Analiz sırasında verilen müzik örnekleri Sibelius programında yazılmıştır. Makalede Gencebasar mühitinin ustad aşıqlarının fotoğrafları verilmiştir.

## Bulgular

Azerbaycan aşık sanatı farklı mühitlerde özüne mahsus vokal ve icra gelenekleri, destançılık eneneleri geliştirmiştir. Bu gelenekleri değerlendirmek ve bir-birinden farkını ortaya çıkarmak aşık sanatının inkişaf istiqametlerini tayin eder. Gencebasar mühiti diğerlerine nisbeten en büyük eraziyi kaplar ve burada zengin yaratıcılık gelenekleri gelişmiştir. Bu hususda Gencebasar mühitinin aşıklarına mahsus vokal ve icra gelenekleri bir çok aspektlerden tahlil edilmiştir. Araştırmanın bu bölümünde yapılan analizler ve elde edilen sonuçlar yansıtılmaktadır.

### Gencebasar Aşık Mühitinin Tarihi-Coğrafi Manzarası

Azerbaycan aşıq mühitleri sırasında geniş coğrafi arazini ehate eden Gencebasar aşıq mühitinin özünemahsus yeri ve mövqeyi vardır.

Gencebasar aşıq mühitinin merkez mövqeyi ilk növbede Gence şeheri ile bağlıdır. A.O.Kerimli öz tedqiqatında Genceni "aşıq sanatının paytaxtı" adlandırmışdır (Kerimli, 1995:50). Buraya Azerbaycanın müxtelif bölgelerinden istedadlı aşıqlar axışıb gelmiş ve ansamblda çalıb çağırmışlar. Onların sırasında İslam Yusifov, Qaraçıoğlu aşıq İvrahamın (İbrahim) adlarını çekmek olar. Qeyd etmek lazımdır ki, İslam Yusifov 1937-ci ilde Gencede ilk defa olaraq 40 aşıqdan ibaret aşıqlar ansamblını yaratmış ve özü de bu birliye rehberlik etmişdir.

Gencebasar aşıq mühitinin özünemahsusluğunu emele getiren cehetler, yaradıcılıq eneneleri mühit daxilinde yer alan aşıq mekteblerinin, mikromühitlerin zengin sanat irsi esasında formalaşmışdır. Buna sebeb de Gencebasar aşıq mühitinin ayrı-ayrı mikromühitler, aşıq mektebleri kontekstinde öyrenilmesini labüd etmişdir. Mühit daxilinde yer alan Tovuz, Gedebey mikromühitleri, Gence, Qazax, Şemkir, Daşkesen aşıq mektebleri böyük coğrafi arealı ehate etmekle yanaşı, hem de qonşu mühitlerle sıx yaradıcılıq elaqeleri nümayiş etdirmişler. Bu elaqeler neticesinde mühitin yaradıcılıq imkanları daha da genişlenmiş ve zenginleşmişdir. Eyni zamanda Gencebasar aşıqlarının yaradıcılığına xas olan yerli ifaçılıq eneneleri ve repertuar Azerbaycan aşıq sanatının inkişafına öz töhfesini vermişdir.

Gencebasar aşıqları haqqında danışarken bu mühite xas olan nesil-şecere bağları xüsusile qeyd edilmelidir. Aşıq şecereleri haqqında A.O.Kerimli Tovuz, M.Aliyev ise Gedebey mühiti ile bağlı öz tedqiqatında geniş malumat vermişler. Tovuz mühitinin aşıq sanatı mehz bir neçe müsteqil qolların ve burada mövcud olan aşıq şecerelerinin öyrenilmesi ile xarakterikdir. Bu tedqiqat üsulu mühitin ümumi formalaşma ve inkişaf xettini üze çıxarmaqla yanaşı, ayrı-ayrı ustad mekteblerinin de yaradıcılıq üslubunun öyrenilmesine imkan verir. Qeyd edek ki, aşıq mühitlerinde sanatın öyrenilmesi ustad-şagird eneneleri ile hayata keçirildiyi üçün, görkemli aşıqların çox sayda şagirdlerinin olması müeyyen şecerenin, qolun ve bu qola mahsus yaradıcılıq enenelerinin yaranması ile neticelenmişdir. Tesadüfi deyildir ki, aşıq sanatında Mirze Bilal mektebi, Aşıq Emrah mektebi, Aşıq İmran mektebi ve s. kimi anlayışlar mehz adlarını çekdiyimiz ve çekmediyimiz ustad sanatkarların özünemahsus yaradıcılıq üslubunun bir neçe şagird nesli terefinden davam etdirilmesi ile yaranmışdır. Neticede bu aşıqların yaradıcılıq desti-xetti hem de mühitin özünemexsus yaradıcılıq meyarlarının formalaşmasına sebeb olmuşdur.

**Gencebasar Aşıqlarının Repertuarı**

Gencebasar mühiti ve onun müxtelif bölgeleri ile bağlı apardığımız tedqiqatlar neticesinde mühite xas olan hava ve dastan repertuarı ile bağlı bir sıra neticeler elde etmiş olduq. Bu mühitle bağlı mövcud elmi menbeler, arxiv materialları (76 a qovluğu) elece de şahsi ekspedisya seferlerinin neticelerine esasen burada 44 dastanın adı çekilir. O cümleden, bu dastanlardan "Qurbani", "Aşıq Aleskerin Gence seferi", "Can bağça" (Miskin Velinin Can Bağça seferi), "Valeh ve Zernigar" dastanları mühitin bütün aşıq mektebleri üçün seciyyevidir. Lakin sırf mekteblere mahsus dastanlar da mövcuddur ki, onların sırasında "Abbas Tufarqanlı", "Şah İsmayıl", "Novruz ve Qendab", "Alıxan ve Peri", "Koroğlu" ("Koroğlu ve Bolu bey", "Koroğlu-Durna teli", "Koroğlunun bezirganla görüşü", "Qıratın oğrulanması", "Koroğlu ve Hasan paşa", "Koroğlunun Derbend seferi", "Boroğlunun Bağdad seferi", "Nigar xanımın Çenlibele getirilmesi" boyları), Göyçe mühiti ile bağlı dastanlardan "Aşıq Aleskerin Gence seferi", "Aşıq Aleskerin Hüseyn Bozalqanlı ile görüşü", "Aşıq Aleskerin Qarabağ seferi", "Hacer xanım", "Aşıq Aleskerin Naxçıvan seferi", "Aşıq Aleskerin Aşıq Hüseyn Şemkirli ile görüşü", "Aşıq Aleskerin İrevan seferi"; elece de mühit xarakterli "Çoban Muhammed haqqında dastan", "İmanın Tiflis seferi", "Aşıq Alının Türkiye seferi", "Kendal Nağı", "Kara Tanrıverdi" dastanları A.O.Kerimlinin tedqiqatında qeyd edilir. "Qaçaq Kerem", "Deli Alı", "Çoban Muhammed ve Salbi Xuraman", "Cavad ve Xurda", "Birinci qövlü bela", "İkinci qövlü bela", "Tamara hekayesi", "Hind şahının oğlu Novruz", "Can bağça", "İsgenderin Berde seferi", "Qul Qanber", "Şınıx qeyreti" dastanları M.Aliyevin dissertasiyasında qeyd edilir. Ekspedisiyalar zamanı hemsöhbet olduğumuz aşıqlar ise bize "Cavad xan" (Gence); "Hasta Qasımın Dağıstan seferi", "Celali kürd oğlu", "Yetim Söyün", "Xan Çobanı", "Melikmemmed ve Gülendam" (Gedebey) dastanlarının adlarını çekmişler. Sadalanan dastanlar Gencebasar mühitinde dastan enenelerinin ne kadar zengin ve rengareng repertuara malik olduğunu bir daha sübut edir. Elece de, bu dastanların böyük qismi hele de aşıqların repertuarında öz yerini qorumaqda davam edir.

Gencebasar mühitinin hava repertuarına gelince, burada klassik aşıq havaları ile yanaşı, hem yerli aşıqların yaratdığı, hem de qonşu mühitlerden exz edilen havalar mühüm yer tutur. Bununla da mühitin hava repertuarı olduqca zengin ve geniş ehateye malik olmaqla yanaşı, bu havaların özünemahsus ifa variantlarının yaranması ile de seciyyevidir. Meselen, "Dübeyti" klassik aşıq havasının Tovuzda "İmran dübeytisi", "Zülfüqar dübeytisi", "Azaflı dübeytisi" kimi növleri yaranmışdır. Bu havalar neinki Tovuz aşıqları tarafından, hetta diger mühitlerin nümayendeleri tarafından de sevilerek ifa edilir. Eyni fikri gözelleme janrı ile bağlı da söylemek mümkündür. "Yaradıcılıqda özünemahsus desti-xetti olan Gencebasar aşıq mühiti besteçilik ve peşekar saz ifaçılığında da ad çıxartmışdır. "Dilqemi", "Aşıq Söyünü", "Zülfüqar dübeytisi", Azaflı dübeyti", "Vaqifi", "Qazax sebzesi", "İncegülü", "Ekber qaragözü", "Selminazı" ve başqa neçe-neçe saz havası bu bölgeye mahsus senetkarların barmaqlarından yadigardır" (Qasımlı, 2011:235).

Ekspedisiyalar zamanı aşıqlar **Gedebeyde** "Baş Sarıtel", "Dübeyti", "Misri", "Koroğlu", "Dilqemi", "Orta Sarıtel", "Zarıncı", "Qaraçı" (El havası), "Kerem gözellemesi", "Terekeme", "İncegülü", "Ovşar" (Mirzali), "Xan Çobanı", "Heyvagülü", "Atlı müxemmes", "Keşişoğlu", "Çoban bayatı", "Dilqemi", "Dübeyti", "Celili", "Kahramanı", "Güllü qafiye", "Demir gözellemesi", "Köhne gözelleme", "Ağır Şerili", "Göyçegülü", "Qaytarma", "İrevan çuxuru", "Ovşarı", "Vaqifi", "Aran gözellemesi", "Tecnis", "Baş divani", "Behri Divani", "Müxemmes", "Atlı müxemmes", "Gedebey gülü" (Aşıq Veli Miskinliye mahsusdur), "Yanıq Keremi", "Mirzecanı", "Ruhani"; **Qazaxda** "Qazax sebzesi" (Gilenar), "Yanıq Keremi", "Ruhani", "İnce gülü", "Celal gülü" (Aşıq Celal yaradıb), "Ustadname", "Vücudname", "Meracname", "Divani-tecnis", "Behmanı", "Mirzecanı", "Ruhani", "Tecnis" (cığalı, sade, dodaqdeymez), "El havası", "Qaytarma", "Köçeri Keremi", "İnce deresi", "Dol Hicranı", "İran dübeytisi" (Koroğlu dübeytisi), "Göyçegülü" havalarının çox ifa edilerek sevildiyini qeyd ederek bizim üçün de xahişimizle "İnce gülü", "El havası", "Qaytarma" ve "Köçeri Keremi" havalarını ifa etdi.

**Gencede** "Gödekdonu", "Sarıtorpaq", "Kahramanı", "Gence gözellemesi" (Aşıq Cuma besteleyib), "Cuma gözellemesi", "Kerem gözellemesi", "Hicran Keremi", "Yurd yeri", "Semenderi", "Muğan çölü", "Mixeyi", "El havası", "Celili", "Orta Sarıtel", "Sürütme geraylı" (Sallama geraylı da deyilir), "Qazax sebzesi", "Keşişoğlu" havalarının adlarını çekerek bir qismini de ifa etdiler. Adı çekilen havalardan "Ruhani", "Sarıtel", "Koroğlu", gözellemeler, "İnce gülü",

"Dübeyti", "Keşişoğlu"; **Tovuzda** "Orta Sarıtel", "Baş Sarıtel", "Ruhani", "Mirzecanı" (Gövheri), "Koroğlu", "Misri", "Deli Koroğlu", "Döşeme Koroğlu" ve bir sıra aşıq havalarının ümumi mühit üçün seciyyevi olduğunu görmek mümkündür. AMEA Memarlıq ve İncesanat İnstitututunun arxivinde qorunan 76 (a) qovluğunda adları yer alan havalar sırasında **Gencede** yaşayıb yaradan aşıqların repertuarında "Mirzecanı", "Ruhani", "Şerili", "Keremi", "Paşaköçdü", "Divani", "Tecnis", "Koroğlu", "Şerili", "İrevan çuxuru", "Van ağzı", "İran qaraçısı", "Qaraçı", "Ovşarı", "Keşişoğlu", "Misri", "Müxemmes", "Çuxuroba", "Koroğlu", "Qaytarma", "El havası", "Dübeyti", "Hüseyni", "Qehremanı", "Celili", "Duraxanı", "Çoban bayatı", "Orta bayatı", "Geraylı, Urfanı" havaları qeyd olunmuşdur. Eyni qaydada **Gedebey** aşıqlarının repertuarında "Qaraçı", "Şerili", "Sarıtel", "Müxemmes", "Divani", "Tecnis", "Dilqemi", "Keremi", "Göyçe gözellemesi"; **Tovuz** aşıqlarının repertuarında "Tecnis", "Misri", "Keşişoğlu", "Dübeyt", "Koroğlu", "Divani", "Koroğlu", "Şahseveni", "Şerili", "Mirzecanı", "Hüseyni", "Kerem şikestesi", "Vaqif gözellemesi", "Aşıq Cüme müxemmesi", "İrevan çuxuru", "Çoban bayatı", "Geraylı", "Müxemmes"; Şemkir aşıqlarında ise "Semenderi", "Qafiye", "Vaqifi", "Duraxanı", "Urfanı", "Meclis divanisi", "Ovşarı", "Keşişoğlu", "Celili", "Orta Celili", "Koroğlu", "Köhne gözelleme", "Yurd yeri", "El havası", "Qehremanı", "Qaytarma", "Qarabağ qaytarması" havalarının adları çekilir. Bu qovluqda Tovuz aşıqları haqqında anketlerde her birinin en az 40-dan, 50-den, 60-dan çox aşıq havası bildiyi yazılır.

Bütün bu melumatlar bir daha gösterir ki, Gencebasar aşıq mühiti coğrafi erazisinin böyüklüyü ile yanaşı, hem de daxilinde bir neçe mikromühitin fealiyyet göstermesi, onlardan her birinde xeyli sayda aşıqların yaşayıb yaratması neticesinde böyük ve zengin irs yaratmağa nail olmuşdur. Gencebasar mühitinin aşıq yaradıcılığının inkişafında, repertuarının zenginleşmesinde diger mühitlerin rolu olduğu kimi, qarşılıqlı şekilde bu mühit de diger aşıq mühitlerine öz tesirini göstermiş ve göstermekde davam edir. Mühitin inkişafında aparıcı rol oynayan esas faktorlardan biri de burada aşıq sanatının her zaman gencleşmesi ve müasir medeni-estetik zövqün telebleri ile ayaqlaşması, aşıq sanatı ile bağlı dövlet seviyyesinde tedris müessiselerinin fealiyyet göstermesidir. Bu fakt Gencebasar mühitinde aşıq sanatına marağın cemiyyetin bütün nesillerinde aynı seviyyede mövcud olmasını sübut edir. Aşıq mektebinde tedris alan uşaqların musiqinin diger saheleri ile bağlı sistemli şekilde bilikler elde etmesi geleceyin savadlı musiqiçileri sırasında Azerbaycan aşığının da yer tutmasını ve müasir dünyaya öz sanatını layiqince tebliğ ve temsil etmesine tekan verdiyini vurğulamaq lazımdır. 20. yüzyıla kadar aşıq ve muğam sanatının öyredilmesi şifahi üsulla hayata keçirilidise, artıq her iki sahede tedrisin bütün merhelelerini ehate eden tehsil müessiselerinin olması müasir aşığın ve muğam ifaçısının qarşısında yeni talebler qoyur. Bu prosesin tedricen inkişaf etdirilmesi, genclerin sanata olan marağını peşekar tedris seviyyesinde qarşılamaq cehdini aşıq sanatının geleceye hesablanan inkişafının mühüm merhelesi hesab etmek olar. Tesadüfi deyildir ki, aşıq sanatı ile bağlı bir sıra mövcud tedqiqatlar hemin sanatın sahibleri tarafından yazılmışdır. Bu baxımdan İ.İmamverdiyevin, A.Rahimovun, M.Aliyevin, A.Memmedovun, H.Kerimovun, N.Qasımlının adlarını qeyd etmek olar. Bütün bunlar bir daha söylemeye imkan verir ki, 20.yüzyılın sonu ve 21.yüzyılın I yarısı aşıq sanatının ve aşıqşünaslığın inkişafında yeni merheledir ve bu merhelede müşahide edilen uğurlu cehdler gelecek tedqiqatlarda öz davamını tapacaqdır.

## Gencebasar Aşıqlarının Yaradıcılığının Havacat Sistemi

Azerbaycan aşıq yaradıcılığında esas tedqiqat obyektlerinden biri onun havacat sistemidir. Aşıq havalarının klassifikasiyası ile bağlı ilkin fikirler Ü.Hacıbeylinin elmi meqalelerinde yer almışdır. Bestekar şikesteleri qarışıq behrli janr qrupuna daxil ederek onu aşıq yaradıcılığının destgahı adlandırmışdı. (Hacıbeyli, 1985). Bu mövzu E.Eldarovanın "Azerbaycan aşıq sanatı" monoqrafiyasında daha geniş ve herterefli açılaraq havacat sisteminin ilk klassifikasiyası aparılmışdır. Bu klassifikasiyaya esasen alim aşıq havalarını bir neçe qrupda cemleşdirmişdir: 1) reçitativ-deklamasiyalı havalar, 2) oxunaqlı-reçitativ tipli havalar; 3) mahnı xarakterli havalar. (Eldarova, 1996:118-125). Daha sonra bu mövzu diger aşıqşünas tedqiqatçıların elmi eserlerinde inkişaf etdirilmiş ve qruplara reqs ve instrumental saz havaları da daxil edilmişdir (Köçerli, 2010:16). Burada aşıq havalarının hem de poetik metnden, müellifinden ve s. gelen meyarlar esasında qruplaşdırılması meselesini de qeyd etmek lazımdır. Bu mesele, ilk növbede regional araşdırmalarda mühüm ehemiyyet kesb edir. Bu ehemiyyeti üze çıxarmaq üçün evvelce hemin meyarlara nezer salmaq lazımdır.

Aşıq havalarının adları da tesnifat sistemine, qruplaşdırmalara öz tesirini bilavasite göstermişdir. Meselen, adları köklerle elaqeli olan havalar mehz bu zeminde qruplaşdırılır: Baş Divani, Ayaq Divani ve s. Tedqiqat obyektimizden ireli gelerek biz, hem de regional xarakterli tesnifatları da araşdırmağı meqsedeuyğun hesab edirik. Bele ki, müeyyen aşıq havalarının tesnifatı mehz onun mahsus olduğu regionla alakadar aparılır. Buna gözellemeler parlaq misal ola biler. O cümleden, bu müeyyenleşme müeyyen regionla bağlı ustad aşıqların yaradıcılığında yer alması ile seciyyevi olan havaları da qeyd etmek olar. Meselen, Dübeyt havasının "İmran dübeyti", "Zülfüqar dubeyti", "Azaflı dübeyti" kimi variantları mövcuddur. Bu aşıqlar Gencebasar aşıq mühitinin nümayendesi olduğu üçün, havanın variantları da mehz bu region üçün seciyyevilik daşıyır ve neticede bölge tesnifatının esasını teşkil etmiş olur.

Aşıq havalarının müxtelif mühitlere göre qruplaşması hem de onların özünemahsus ifaçılıq eneneleri ile bağlıdır. Bu baxımdan müasir dövrde Azerbaycan aşıq havaları esas üç mühitin ifaçılıq enenelerini özünde ehtiva edir: Şirvan, Gencebasar ve Borçalı mühiti. Eyni zamanda Borçalı, Göyçe ve Gencebasar aşıq ifaçılıq eneneleri müşterek cehetlere malikdir ki, bu da üç mühiti bir-birine yaxınlaşdırır. Neticede, her üç mühitin demek olar ki, müşterek repertuarı formalaşmışdır.

Aşıq havalarının regionlar üzre tesnifatının aparılması hem janr qrupları, hem de onlara verilen adlarla bağlı teyin edilir. İlk növbede janr qrupları ile bağlı meyarları nezerden keçirek. Aşıq havacatında janr qrupları dedikde, buraya gözellemeler, divani, dubeyt, müxemmes, şeşengi, peşrovlar ve s. aid oluna biler.

Bu janrların bir qismi havanın poetik mezmunu, digeri ise mehz musiqisi ile bağlıdır. Burada janrların regional meyarlarını müeyyenleşdirmek üçün hemin havaların hansı mühit üçün seciyyevi olmasına diqqet yetirmek lazımdır. Meselen, peşrov, şeşengi kimi janrların Şirvan mühiti üçün seciyyevi olması melumdur. Gözellemeler ise öz adına göre teyinat alaraq hansı regiona mahsus olduğunu büruze verir. Mesela, "Göyçe gözellemesi", "Şirvan gözellemesi" ve s. Regional xarakter daşıyan havalar sırasında ekser nümuneler ise mehz öz adı ile bağlı yer almaqdadır. Bu baxımdan ustad aşıqların adları ile bağlı havalara nezer salaq. Gencebasar mühiti üçün seciyyevi olan ve bilavasite ustad aşıqların adı ile bağlanan havalar esas etibarile enenevi janrın variantları kimi özünü gösterir. A.O.Kerimli variantlaşma problemini diqqet merkezine çekerek, Tovuz mühitinde aşıq havacatının sistemleşdirilmesinde mane töreden sebeblerden biri kimi eyni havaların qollara göre farklı adlarla tanınmasını gösterir. ""Köhne Dilqemi" havasını Tovuzun Bozalqanlı qolunun aşıqları esasen tanınmış "Dilqemi" havasının çox qedim bir variantı kimi, yuxarı Tovuzda ise "Köhne Dilqemi", "Güvendikli Ahmet", Borçalıda ise "Faxralı Dilqemi" kimi ifa edirdiler" (Kerimli, 1995:75).

Bütün bu faktlarla yanaşı, Gencebasar aşıqlarının hava repertuarının öyrenilmesi zamanı biz hem mövcud tedqiqatlara, hem de bölgeye ekspedisiyalar zamanı ustad aşıqlardan elde etdiyimiz bilgilere esaslanmışıq. Önce de qeyd etdiyimiz kimi Gencebasar aşıq mühiti özünde bir sıra mikromühitleri (mektebler de demek olar) birleşdirir. Burada Tovuz, Gedebey, Daşkesen-Şemkir, Gence, Qazax kimi lokal aşıq mühitleri fealiyyet gösterir. Bu kiçik mikorimühitlerin her birinin özünemahsus ustad aşıqları, yüzillerle formalaşmış hava ve dastan repertuarı, ifaçılıq eneneleri mövcuddur. Malum olduğu kimi son dövrde bu mikromühitlerden bir qismi xüsusi tedqiqatların obyekti kimi araşdırılmışdır.

Gencebasar mühitine mahsus ümumi repertuarın müeyyenleşmesi üçün, biz bölgenin müxtelif erazilerine ekspedisiya seferleri teşkil ederek, hal-hazırda fealiyyet gösteren aşıqlarla görüşler teşkil etmişik. Bu seferler zamanı aşıqlar bize müasir repertuarla ve ifaçılıq eneneleri ile bağlı xeyli malumat vererek, hansı havaların auditoriya tarafından daha çox taleb olunduğunu, eyni zamanda dinleyicilerin müasir bedii - estetik deyerleri ile bağlı mövcud problemleri de dile getirdiler. Qeyd etmek lazımdır ki, Gencebasar mühitinde dominantlıq teşkil eden mikromühitler Tovuz ve Gedebey hesab oluna biler ve burada formalaşan ifaçılıq eneneleri mühitin diger bölgelerine de bilavasite öz tesirini göstermişdir. Xüsusile, Tovuz aşıq mühitinde mövcud qollar (Bozalqanlı, Şemşeddil) ve onlara mahsus repertuar, ifaçılıq eneneleri neinki Gencebasar erazisinde, ümumiyyetle, Azerbaycan aşıq sanatınının (müeyyen manada Güney Azerbaycan ve Anadolu da buraya daxil edile biler) inkişafına tekan vermişdir. Qeyd edek ki, bu gün bize malum olan klassik aşıq havacatının esas janrları Tovuz aşıqları tarafından böyük ustalıqla ifa olunmuş, elece de bir çox havaların müxtelif variantları yaranmışdır. Bununla bele, A.O.Kerimlinin de qeyd etdiyi kimi, Azerbaycanın Qerb zonası, o cümleden Gencebasar aşıq mühitinin formalaşmasında ve inkişafında Borçalı ve Göyçe mühitlerinin mühüm rolu olmuşdur.

Buraya xas olan ifaçılıq eneneleri ve repertuar terkibi bu üç mühitin qarşılıqlı mirası hesab oluna biler. Bu barede fikirlere Tovuz, Gedebey, Qazax aşıq yaradıcılığı ile bağlı bir sıra tedqiqatlarda rast gelinir. "Hem Göyçe, hem de Qazax aşıq mühitlerinin bir çox xüsusiyyetlerini bir-birinden ayrı tesevvür etmek mümkün deyildir. Çünki arazi etibarile yaxın olan Qazax ve Göyçe tarix boyu saz-söz sanatı ile eyni eneneler üzerinde formalaşmış, inkişaf etmişdir" (Qasabova, 2015:21). İ.Qasabova Qazax aşıqlarının Borçalı mühitinin ustad senetkarları ile yaradıcılıq elaqelerinden yazarken, bu faktın bölgenin sanat meyarlarının yükselmesinde mühüm ehemiyyet daşıdığını vurğulayır. Mühitlerarası elaqelerin genişlenmesi ve sıxlaşması ise esas etibarile XIX-XX yüzyıllarda daha çox baş tutmuşdur. Bu da gediş-geliş imkanlarının yaxşılaşması, elece de aşıqların müxtelif bölgelerin el şenliklerine davet edilmesi, xalqın böyük muhabbet ve sayqı ile ustadları qonaq etmesi ile bağlı idi. Hemçinin, ustad aşıqlar başqa bölgelerde yaşayan hemkarlarından davet alaraq müxtelif seferler edirdiler ki, burada qurulan meclisler her biri sonradan bir dastana çevrilir, sevilerek söylenir ve meşhurlaşırdı.

**"Ruhani" Havası Gencebasar Aşıqlarının İfasında**

Müxtelif tedqiqatlarda yer alan fikirler ve ekspedisiya seferlerinden elde etdiyimiz melumatlar demeye imkan verir ki, Gencebasar mühitinde yer alan havalar Borçalı ve Göyçe aşıq mühitleri ile ortaq repertuar terkibine malik olmaqla yanaşı, klassik havacatın esas hissesini teşkil edir. Bu mühitin ustad sanatkarları klassik aşıq havalarının esas hissesini bilmekle yanaşı, onların gelecek nesillere öyredilmesi, tebliği meselesinde de böyük rol oynayır. "Gencebasar aşıqlarının meziyyetlerinden biri de onların yüksek ifaçılıq medeniyyeti ve peşekar saz ifaçılığı ile elaqedardır" (Dadaşzade, 2019:75) Gencebasar mühiti üçün seciyyevi olan repertuarın terkibinde bölge xarakterli havalarla yanaşı, klassik janrlar mühüm yer tutur. Bölge xarakterli havaların esas qismi ise klassik janrların variantları kimi teşekkül tapır. Ekspedisiya seferlerimiz zamanı, yaşlı neslin nümayendesi olan aşıqlar müasir tamaşaçının zövqü ile bağlı fikirlerini bildirerken, esas etibarile hareketli ve oynaq havalara meyl edilmesini, instrumental ifa üslubunun deb almasını xüsusi olaraq vurğulayır ve bunun menfi taraflarını da teessüf hissi ile söyleyirdiler. Meselen, Qazaxlı aşıq Hüseyn bizim üçün "Ruhani" havasını ifa ederken, qulağımız öyreşen enenevi ifa tarzını müşahide etmedik. O cümleden, bu havanın müasir repertuarda daha çox instrumental şekilde ifa olunması da enenevilikden uzaqlaşmaya sebeb kimi qeyd edilmelidir.



**Fotoğraf 2.** Qazax aşığı Hüseyn Deryahquliyev

Aşıq Hüseyn havanın teqdim etdiyi şekilde ifasının daha doğru olduğunu, lakin müasir dövrde genc neslin daha çox oynaq variantlara üstünlük verdiyini ve bu sebebden de esas ifa şeklinin tedricen unudulduğuna dikkat çekdi.




**Figür 1.** “Ruhani” aşıq Hüseynin ifasından, instrumental giriş

İnstrumental ifaçılığın vüset alması hem de Gencebasar mühitinde ansambl ifaçılığının inkişafı ile elaqedardır. Aşıq sanatında ansambl ifaçılığı dedikde, yada ilk növbede Şirvan mühiti düşür. Bu ansambl bilavasite instrumental müşayiet destesi ile bağlıdır. Lakin Gencebasar aşıqlarının sanatında yer alan ansambl ifaçılığı farklı meyarlara esaslanır. Burada ansambl ifaçılığı hem saz-balaban dueti, hem de aşıqlardan ibaret ansambl destelerinin fealiyyeti ile bağlıdır. “Bu erazide aşıq sanatı enenelerinin formalaşması zaman-zaman yükselişde olan yaradıcılıq prosesinin Gencebasar sanatından gelen peşekar ifa kompleksi - reqs, şux hareketler, saz-balaban müşahidesi, bazan da pantomim mizanlara mahsus ifa üslubu ile tamamlanır” (Nebiyev, 2004:247). Saz-balaban duetinin teşekkülü ile bağlı A.O.Kerimli öz tedqiqatında geniş malumat vererek bu enenenin başlanğıcını Aşıq Ekberin yaradıcılığı ile bağlayır: “1955-ci ilden başlayaraq Aşıq Ekber balabançını sazla birge çıxış üçün xüsusi metodika ile hazırlamağa başlayır” (Kerimli, 1995:97). Müellif hemçinin bu metodikanın xüsusi ehemiyyetini qeyd ederek, aşıqla birge çıxış eden balabançının ifa manerasının müsteqil ifaçılardan ferqlendiyini bir sıra meqamlarla esaslandırmışdır. Burada balabançının aşıq havacatına, saz ifaçılığına yaxından yiyelenmesini qeyd etmek lazımdır. Bu menada balabançının mövqeyini hardasa Şirvan mühiti üçün seciyyevi olan aşıq xanendesi ile müqayise etmek olar. Aşıq xanendesinin mövqeyinin esas göstericisi bilavasite aşıq musiqisine derinden beled olmaq, meclis zamanı ona destek olmaq, müeyyen meqamlarda evez ede bilmek, irelide bu sanatın daşıyıcısı ola bilmek üçün esas şartlardan biridir. Burada aşıq öz xanendesini müeyyen iller çerçivesinde hazırlayır, onu senetin sirlerine agah edir. Eyni şekilde Aşıq Ekber balabançını ansambl ifaçılığı üçün hazırlayarken ona havaları, elece de müşayiet mövqeyini hayata keçirmek üsullarını öyretdikden sonra meclise buraxırdı. Hatta aşıq balabançının öz çıxışını sadece müşayietçi qisminde mehdudlaşdırmasını qebul etmeyerek, onun aşığı eyni şekilde tekrarlaya bilmesini ve oxumaq bacarığını da mühüm hesab edirdi. Elbette ki, bu deyerler aşıq balabançasını diger hemkarlarından xeyli ferqlendirirdi. Alim aşıq-balabançı duetinin havaların tefsirine de öz tesirini gösterdiyi söylemişdir. Buradan bele netice çıxara bilerik ki, aşıq havalarının mühite göre tefsir xüsusiyyetlerinin formalaşmasında instrumental müşayiet destesinin de mühüm rolu vardır. Bunu praktik şekilde göstermek meqsedile A.Kerimli bir sıra havaların tehlilini de aparmışdır. Alimin yanaşmasından yol alaraq bazı bölge xarakterli havalara nezer salmaq olar.

“Şahseveni” havasının Aşıq Ekberin ifasında sesyazısını dinledikde havanın instrumental girişinin ve araçalğıların bilavasite balaban tarafından ifa olunduğunu müşahide edirik.



**Fotoğraf 3.** Tovuz aşığı Ekber Ceferov (Web 2)




**Figür 2.** "Şahseveni" Aşıq Ekberin ifasından, giriş (balaban)

Vokal partiyanın başlanması ile balaban demkeş mövqeyini icra edir. Qeyd edek ki, bazı motivleri balaban vokal partiya ile paralel şekilde, asta sesle ifa edir. Eyni havanın Borçalı mühitinin ustadı Aşıq Kamandarın ifasında dinlediyimiz sesyazısında tebii olaraq, havanın instrumental mezmunu bilavasite sazda ifa olunur. Bundan elave mühite xas olan temkinli ifa üslubunu da qeyd etmek lazımdır. Aşıq İslam Ekberovla söhbetlerimiz zamanı ustad mühitlerarası ferqlerden danışarken Borçalı aşıqlarının eyni havanı daha ağır temple, temkinle ifa etdiyini ve bu cehetin ferq yaradan tefsir xüsusiyyeti kimi diqqet çekdiyini söylemişdir.



**Fotoğraf 4.** Gedebey aşığı İslam Ekberov

Bu faktı dinlediyimiz nümunede de görmek mümkündür. Lakin bu ifada diqqeti celb eden daha bir maraqlı meqam aşıq Kamandarın havanı bütünlükle instrumental şekilde ifa etmesidir.



**Fotoğraf 5.** Borçalı aşığı Kamandar Efendiyev (Web 3)



**Figür 3.** "Şahseveni" Aşıq Kamandarın ifasından, giriş

Gencebasar mühitinin instrumental ifaçılıq eneneleri haqqında danışarken biz bu enenenin Borçalı mühiti ile elaqesine de diqqet çekmişdik. Bununla bele mühitin özü üçün de vokal-instrumental havaların sırf instrumental ifa versiyalarının yaranması faktı melumdur. Hetta bele demek olarsa, bu ifa terzi bir tendensiyaya çevrilerek onun peşekar temsilçileri de formalaşmışdır. Borçalı mühitinde havaların instrumental ifasına daha çox Aşıq Emrahın yaradıcılığında rast gelinse de, aşıq Kamandarın tehlile celb etdiyimiz ifası da bu baxımdan parlaq nümune hesab oluna biler.

İnstrumental ifaçılıq imkanlarının yüksek seviyyede inkişaf etmesi de bölgede mövcud olan sazende yaradıcılığının, elece de Borçalı, Göyçe aşıq mühitlerinin tesirinden qaynaqlanmışdır. Müasir dövrde mükemmel saz ifaçılarının çoxunun mehz Gencebasar mühitinin yetirmeleri olması da tesadüfi deyil. "Klassik saz havalarının mahir ifaçılığı sahesinde Edalet Nasibov, Ali Quliyev, Xanlar Muharremov, Zahid Aslanoğlu, Celal Qehremanov ve Zülfiyye Aşıqlının xüsusi meharet ve orijinal ferdi üslub keyfiyyet nümayiş etdirmesi bu mühitde sanatın çoxyönlü inkişaf istiqametlerinin münbit estetik zemine ve zengin tarixi eneneye söykendiyini gösterir" (Ozan aşık yaratıcılığının geliştirme yolları, 2003:358). Hatta bele deye bilerik ki, aşıq sanatında instrumental havaların vüset alması da mehz bu mühitle bağlı meseledir.

Gencebasar mühitinde aşıq ifaçılığının instrumental meyarları haqqında melumat vermek lazımdır. Melumdur ki, aşıqların ifası saz, balaban, nağara, qoşanağara kimi musiqi aletleri ile müşayiet olunur. Bu aletlerden yalnız saz aşığın özü tarafından ifa olunur, diger aletler ise müşayiet destesinin öhdesine düşür. Lakin bu terkib her mühit üçün seciyyevi deyil. E.Eldarova bu meseleye toxunaraq instrumental müşayiet formasını mühitlere göre tesnif edir ve Gencebasar mühiti ile bağlı müşayiet tipini bele şerh edir: "Gence, Şamxor (indiki Şemkir-F.K.), Tovuz ve Qazax aşıqları: Bu zonanın nümayendeleri de aşıq sanatındakı mövcud enenelerin bilicileridir, hemin eneneleri inkişaf etdirir ve geniş yayırlar. Onlar sazda böyük maharetle çalırlar...onların ifası elave olaraq balabanla müşayiet olunur" (Eldarova, 1996:24). Aşıq sanatının regional enenelerinin tezahürü baxımdan ilk böyük tedqiqat işi olaraq müraciet etdiyimiz bu menbede Gencebasar mühiti üçün seciyyevi olan saz-balaban terkibinin müasir dövrümüzde de qorunub saxlanıldığını deye bilerik. Bu müşayiet tipinin tatbiqi ise aşıq havalarının mühite xas ifaçılıq enenelerinin formalaşmasına getirib çıxarmışdır.

## Sonuç ve Tartışma

Belelikle, elmi edebiyyat ve bölgede apardığımız saha araştırmalarının neticelerine istinad ederek, Gencebasar mühitinin vokal ve enstrumental icra gelenekleri ile ilgili bir takım sonuclara vardık. Öncelikle belirtmek gerekir ki, Gencebasar mühiti dahilinde bir sıra aşık mekteblerini birleştirir ve neticede bu mekteblerde gelişen bütün icra gelenekleri birbaşa Gencebasar mühitinin enenelerini formalaşdırmış olur. Burada aşıkların repertuarında yer alan hava ve destanlar tüm Azerbaycan aşık sanatının esasını teşkil etmekle yanaşı, bölgeye mahsus bir çok yeni havaların yaranması ile de seciyyevidir. Bu havaları tesnif ederek iki türün olduğunu ortaya çikarmış olduk. Bele ki, bu havalar arasında hem mevcut havanın diğer variantları (Azaflı dübeyti, Zülfüqar dübeyti), hem de yeni nümuneler (Qazax sebzezi, İncegülü) vardır. Bu da Gencebasar aşıklarının yaratıcı potensialını ortaya qoymuş olur. Gencebasar mühitinde enstrumental ifaçılık yüksek seviyyede inkişaf etmişdir. Burada tek saz, saz-balaban dueti, bir neçe aşığın birlikte çıxışı, o cümleden aşıklar ansamblları fealiyyet göstermişdir. Bununla yanaşı enstrumental ifaçılıq müsteqil şekilde son donemlerde daha da vüset almışdır ki, bu da bir çox havaların instrumental ifa variantlarının yaranması ile neticelenmişdir. Meselen, “Yanıq Keremi”, “Baş Sarıtel”, “Kerem gözellemesi”, “Ruhani” ve diğer havalar müasir repertuarda enstrumental olarak icra edilir. Gencebasar mühitinde destançılık gelenekleri peşekar seviyyede teqdim olunur ve ayrıca tedqiqat obyekti kimi araştırıla bilen mevzular sırasındadır. Bu bölgenin özünemahsus destan repetuarı vardır. Bununla yanaşı, Gensebasar aşıkları klassik destanların, “Koroğlu” destanının mahir ifaçıları kimi tanınır. Burada aşıkların vokal ses imkanları oldukca geniştir ve zil ses diapazonu xarakterikdir. Gencebasar mühitinde mevcut geleneklerin yaşadılması ve süretli şekilde inkişaf etmesi hem Azerbaycan, hem de ümumturk aşıklık sanatının inkişafında mühim rol oynamaktadır.

## Bilgilendirme

Elmi tedqiqat işimin ve mekalemin erseye gelmesi için Azerbaycan Aşıqlar Birliyinin sedri, professor Meherrem Qasımlı ve sedr müavini Altay Memmedova, elmi rehberim professor İrade Köçerliye, Azerbaycanın en kocaman ustad aşıklarından olan Gedebeyli İslam Ekberova, Gence Aşıklar Birliyinin müavini İlqar Necefova, Gedebey Aşık Mektebinin direktoru Etibar Eliyeve, aşık mektebinin müellimleri Şahin Ekberov ve Vüqar Şamilova, Qazax Aşıklar Birliyinin sedri Hüseyn Deryahquliyeve, Tovuz aşıkı ve sazbendi Sahib Hüseynova derin teşekkürümü bildiriyorum.

**Yazar Özgçemişi**



Feride Ağabey kızı Kerimova. Mezun olduğu okullar; 2005-2009 yıllar Müzik Koleji (piano ihtisası), 2009-2014 yılları Azerbaycan Devlet Kültür ve Sanat Üniversitesi “Müzikolog” ihtisası (bakalavr), 2014-2016 yılları Azerbaycan Devlet Kültür ve Sanat Üniversitesi “Müzik eleştirisi” ihtisası (yüksek lisans), Çalıştığı yerler; Müzik okulu, Bakü Koreografi Akademisi (*Öğretmen*), 2019 yılından bu güne kadar Azerbaycan Cumhuriyeti Kültür Bakanlığı Kültür için Bilimsel-Metodik ve İhtisas Merkezinde *metodist* olarak çalışmaktayım. **Kurum:** Bakü Koreografi Akademisi, Bakü, Azerbaycan. E-mail: farida.agazade@gmail.com **ORCID**: 0009-0005-9145-7392

## Kaynaklar

Aliyev, M.F. (2018). Gedebey aşık mühiti ve onun ifaçılık eneneleri. Doktora tezi. Bakü.

AMEA-nın MİI arxivi, 1a-96a, 76 saylı qovluq (1937). Elmi Tedqiqat Musiqi Kabinetinin Gence şeherine teşkil etdiyi ekspedisiya materialları.

Dadaşzade K.H. (2019). *Aşıkşünaslığın tarihi ve nezeyirresi*. Bakü, ADMİU.

Eldarova, E.M. (1996). *Azerbaycan aşık sanatı*. Bakü, Bilim

Hacıbeyli Ü.A. (1985). *Azerbaycan müzik hayatına bir b*akış. Bakü / http://uzeyir.musigi-dunya.az/az/article21.html

Kerimli, A.O. (1995). *Таузская школа ашыгов Азербайджана (Azerbaycanın Tovuz aşıq mektebi).* Doktora tezi. Bakü.

Köçerli, İ.T. (2010). *Aşık sanatı: müzik ve poetik türler*. Bakü.

Kasımlı, M.P. (2011). *Ozan aşık sanatı.* Bakü, Uğur.

Memmedov, T.A. (2011). *Azerbaycan aşık yaratıcılığı*. Bakü, Apastrof.

Nebiyev, A.M. (2004). *Azerbaycan aşık okulları*. Bakü, Nurlan.

Qesebova, İ.C. (2015). *XX yüzyıl Kazax aşık mühiti*. Bakü, Bilim.

Ozan aşık yaratıcılığının geliştirme yolları. (2013). Bakü, Çaşıoğlu.
**Web siteleri**
Web 1. https://www.takvim.com.tr/guncel/2020/10/17/gence-nerede-azerbaycanin-gence-sehri-haritada-hangi-konumda-nufusu-ne-kadar
Web 2. https://az.wikipedia.org/wiki/A%C5%9F%C4%B1q_Kamandar
Web 3. https://medeniyyet.az/page/news/57679/Senetin-Asiq-Ekber-zirvesi.html

# Performance traditions of the Ganjabasar environment in the art of Azerbaijan Ashiq

## Abstract

From the middle of the 20th century, the study of regional traditions came to the fore in ashug art. A number of scientific works have been written in this field, and books dedicated to ashug music and performance traditions of Tovuz, Gadabey, Shirvan, Borchali, Gazakh, and Karabakh regions have been published. Ganjabasar environment covers the largest geographical area compared to other regions and includes a number of small ashug schools. There are schools that include the performing traditions of Ganja, Tovuz, Gazakh, Gadabey, Shamkir, and Dashkasan ashugs. Outstanding masters of this art lived and created in the environment of Ganjabasar, which made great contributions to the art of Azerbaijan ashug, and were selected for their talented performances. In particular, with the ability to compose ashug songs, they enriched the repertoire with new ashug songs and developed the traditions of storytelling. Ashug songs performed by Ganjabasar ashiks are performed accompanied by saz and balaban. Ganjabasar ashugs are performed in duets and more with ensemble compositions. The ensemble of ashugs was organized here for the first time. The creativity of Ganjabasar ashugs has atmospheres specific to the region. Among them, you can name the main Bash Sarıtel, Orta Sarıtel, Ayaq Sarıtel, İncagulu, Gazakh sabzasi, Zulfuqar dubeyti, Azaflı dubeyti, Calalgulu, Ganja gozellemesi and others. Ganjabasar ashug environment is also famous for its epic traditions. The main part of Azerbaijani ashug stories are collected here or their variants are available. During our research in the Ganjabasar region, one of such epics is the epic "Malikmammad and Gulandam".In addition, the repertoire of Ganjabasar ashugs includes “Qurbani”, “Ashug Alasgar’s visit to Ganja”, “Can bakhca”, “Abbas Tufarqanlı”, “Shah İsmayıl”, “Novruz and Qandab”, “Alıxan and Pari”, “Koroglu” and other epics. takes place. The vocal range of Ganjabasar ashugs is wide and high range is typical here. This allows the aficionados to perform complex structures and a wide range of tunes in a highly professional manner. Instrumental performance is also developed here.As a result, instrumental versions of a number of ashug songs were created. Some of the modern ashugs prefer to play the vocal part of the songs instrumentally, which has led to the emergence of a new performance trend.With this, “Yanıq Karami”, “Karam gozallamasi”, “Ruhani”, “Bash Sarıtel” etc. ashug songs are played only instrumentally. The performance traditions, ashik song and epic repertoire of the Ganjabasar ashiq milieu were formed and developed mutually with the Goycha and Borchali ashiq environment, and therefore, in solving the problem, the vocal and instrumental performance traditions of the ashik milieu of these environment were kept in mind and comparisons were made. Many of Ganjabasar ashugs studied under Borchali masters or, on the contrary, ashiks here were apprenticed to Tovuz, Gazakh, Gadabey, Shamkir ashugs. As a result, the mutual sharing and influence of creative traditions took place.

**Keywords:** Ganjabasar, ashug, ashug song, repertoire, epic, tradition